

***

Mən hedonist oxucuyam; kitablarda zövq, ləzzət axtarıram.

***

Biz artıq tərəqqiyə inanmırıq – məgər bunun özü elə tərəqqi deyilmi?

***

Kimsə yazdığı kitabla qürurlanır, ancaq mən hər oxuduğumla.

***

Meymunlar qəsdən danışmırlar ki, onları işləməyə məcbur etməsinlər.

***

İki eyni cürə dağ tapammazsan, amma yer üzündə hər yanda düzənliklər eynidir.

***

Oxucum, Allah özü səni uzun-uzadı müqəddimələrdən qorusun.

***

Bir kitabın bizə xoşbəxtlik imkanı verdiyinə nədən inandığımı tam olaraq bilmirəm, amma bu alçaqkönüllü möcüzəyə görə, həqiqətən, minnətdarım.

***

Şübhə – zəkanın adlarından biridir.

***

Mənim yerim cəhənnəmdədirsə belə, səma var olsun.

***

Əgər bizə heç nə – yəni nə söz, nə arzu-istək, nə də xatirə təsir eləmirsə, deməli, ölüyük. Mən bilirəm ki, hələ sağam.

***

Həbsxanalar həmişə ədəbiyyata himayədarlıq eləyib; yada salaq Verleni və Servantesi.

***

Dünya elə bir labirintdir ki, ondan heç hara qaçmaq mümkün deyil.

***

İstənilən, hətta ən uzun və mürəkkəb həyat bircə andan ibarətdir; o an ki, insan həmişəlik kim olduğunu bilir.



## Karlos KASTANEDA

Atdığı hər addımı yer üzündə özünün son döyüşü kimi görən kəsin gücü qarşısında güc dayanmaz.

***

Bu gözəl dünyada, belə gözəl zamanda yaşadığınçün cavabdehlik daşıman gərək.

***

Düşün ki, heç vaxtın qalmayıb. Yalnız bu yolla addımına əsl güc qazandırarsan. Əks halda hər addımını qorxa-qorxa, qətiyyətsiz atacaqsan.

***

Gözlərimiz önündəki bu hərgünkü dünya olsa-olsa, çocuqkən bizə aşılananların nəticəsidir.

***

Mən “savaş” deyirəm, ona görə ki, insan bütün həyatı boyu çarpışır...

***

İstənilən təsadüf yalnız dərk olunmamış qanunauyğunluqdur.

***

Dünyaya sevginin gözüylə nəzər yetirdiyimiz zaman dünya da bizə özünün ən yaxşı tərəflərini aşkar edir.

***
Dünya sirlərlə dolu sonsuz bir aləmdir. O sirlərə də tam anlamıyla heç vaxt vaqif ola bilməyəcəyik. Odur ki, dünyayla qovğa etmək yerinə, sirlərinə və qüsursuzluğuna sayğı göstərmək ən doğrusudur.
***
Hər şeyi yenidən başlamaq üçün keçmişlə üzülüşməliyik.
***
Ölümün ovçu olduğu bir dünyada peşmanlıqlara və şübhələrə vaxt yoxdur. Vaxt yalnız qərar qəbul etmək üçün var.
***
Sadəcə, ürəyi olan yollarda gəzinirəm, ürəyi olan hər hansı yolda, o yolda irəliləyir və inanıram ki, dəyərli olan tək şey bir yolu sonacan qət etməkdir.
***
Çox gülürəm, çünki gülməkdən xoşlanıram, amma nə deyirəmsə, hamısı tam ciddidir.
***
Gerçək savaşçı hündür qala divarlarını yarıb keçmək yerinə, onların üstündən aşaraq keçməyi bacarandır.
***
Bir dosta sahib olmaq güc sahibi olmaq deməkdir.
***
Ən qorxulusu – "yenə də alınmır" deyil, ən qorxulusu "bir də sınamaq istəmirəm"dir.
***
Bir yolda ki ürək yoxdur, o yol üçün ömür sərf etməyinə dəyməz.
***
İnsan itirəcəyi heç nəyi olmayanda cəsarətlənir. Ancaq ətəyindən yapışa biləcəyimiz bir şey olunca qorxaq, ağciyər biriyik.
***
Mən heç kəsə heç vaxt acıqlanmaram. Heç kimsə məni hiddətləndirəcək qədər əhəmiyyətli nəsə edə bilməz. İnsanlara ancaq gördükləri iş vacib olanda hirslənərsən. Xeyli vaxtdır belə bir şey hiss etmirəm.

## Qabriel LAUB

Ən təhlükəsiz yollar o yollardır ki, heç yerə aparmır.
***
Arxeoloqlar yer altından siyasətçilərin dəfn elədiyi tarixi qazıyıb üzə çıxarırlar.



***
Adından rəhbərləri danışan yerdə xalq həmişə susur.
***
Peyğəmbərlərə abidəni elə onlara atılan daşlardan düzəldirlər.
***
Qəhrəmanlar təhlükəli vaxtlarda gərəklidir, qalan vaxtı təhlükəlidirlər.
***
Yalandır ki, qəzetlər bizə düşünməyi tərgidib. Krossvord dərc eləyən məgər onlar deyilmi?
***
Məktəbdə keçirdiyimiz onlarca ili saymasaq, bütün ömrümüz boyu öyrənirik.
***
Dost o adamdır ki, səni havayı yerə satmır.
***
Axmaqların düşünmədiklərinə inanmaq – nikbinliyin ən təhlükəli şəklidir.
***
Bu aktrisanın karyerası rejissorun həyatında oynadığı görkəmli rolundan başladı.
***
Məhəbbətin daimi qalmağı üçün laqeydlik qarşılıqlı olmalıdır.
***
O adam azaddır ki, azad olmadığını ən az dərk edir.
***
Fantast o adamlardır ki, gerçəkliyi dərk etmələri üçün fantaziyaları yetmir.
***
Kim ki bir tək həqiqəti bilir, məcburdur tez-tez yalan danışa.
***
İstənilən hakimiyyət xalqın içindən çıxır və ora bir də heç vaxt qayıtmır.

*Hazırladı:* **Cəlal MƏMMƏDOV**